

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

29 sentyabr 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 38 (3601)


# PREZİDENT İLHAM ƏLİYEV: "BİZ MÜSTƏQİLLİYİMİZİN, ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜN KEŞİYİNDƏ ƏBƏDİ DURACAĞIQ"

Sentyabrın 27-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunun Qaraxanbəyli kəndində 27 sentyabr – Anım Gününə həsr olunmuş xatirə lövhəsinin önünə gül dəstələri qoyublar.




Qeyd edək ki, Qaraxanbəyli kəndi və digər beş kənd İkinci Qarabağ müharibəsinin ilk günündə azad edildiyindən, bu istiqamətdə gedən döyüşlərdə qəhrəman Vətən oğullarımız düşmənin birinci müdafiə xəttini yararaq şəhidlik zirvəsinə ucalıblar. Məhz buna görədə şəhidlərimizin şərəfinə bu abidə - bu qaya parçası burada, Qaraxanbəyli kəndinin yaxınlığında ucaldılıb.

Burada çıxış edən ölkə başçımız 44 günlük Vətən müharibəsində şücaət göstərən şəhidlərimizin qəhrəmanlıqlarından söz açaraq əziz xatirələrini ehtiramla yad edib.

Çıxışı zamanı ölkə başçımız düşmən üzərində böyük qələbəmizdən qürurla danışıb: "Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub-yaradırıq, şəhərlərimizi, kəndlərimizi bərpa edirik və həm də şanlı Zəfərimizlə fəxr edirik. Eyni zamanda, fəxr edirik ki, biz - bu torpaqların sahibləri bu torpaqlara yenidən həyatı qaytarırıq. Bu gün şəhidlərimizin əziz xatirəsini yad edərək, bir daha hər birimiz özünə söz verməlidir, vəd verməlidir, and içməlidir ki, biz müstəqilliyimizin keşiyində əbədi duracağıq, biz ərazi bütövlüyümüzün keşiyində əbədi duracağıq. Qoymayacağıq ki, bir daha düşmən başını qaldırsın, qoymayacağıq ki, bir daha bizim üçün təhdid yaratsın. Əgər bunu görsək, dərhal hərəkətə keçəcəyik. Əminəm ki, buna ehtiyac olmayacaq. Çünki ölkəmizin artan gücü, o cümlədən hərbi gücü müstəqilliyimizin, rahat həyatımızın təminatçısıdır, onun qarantıdır".

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində Yuxarı Gövhər Ağa məscidini ziyarət edib, burada Heydər Əliyev Fondu tərəfindən aparılan yenidənqurma və bərpa işləri ilə tanış olublar.

Qeyd edək ki, Şuşa şəhəri işğal altında olduğu müddətdə ermənilər tərəfindən dağıdılmış Yuxarı Gövhər Ağa məscidində 2021-ci ilin noyabr ayından başlayan bərpa ilə əlaqədar möhkəmləndirmə işləri görülüb, müdaxilələr aradan qaldırılıb, fasadlarda və binanın daxilində suvaq işləri başa çatdırılıb. Minarələrin boya işlərinə başlanılıb. Hazırda Şuşa şəhərindən Bakıya gətirilmiş sal qaya parçalarından emalatxanada pəncərə haşiyələrinin daş kəsimi və fiqur hazırlanması işləri davam etdirilir. Bərpa işlərinin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.

## Rəsmi xronika

***D**övlətimizin başçısı sentyabrın 24-də Azərbaycan Respublikasında medianın inkişafında xidmətlərinə görə Əflatun Əhməd oğlu Amaşovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.*

***A**zərbaycan Prezidenti İlham Əliyev sentyabrın 24-də Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.*

***Ö**lkəmizin rəhbəri sentyabrın 24-də təhlükə potensiallı obyektlərin təhlükəsiz istismarının təmin edilməsi sahəsində dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında sərəncam imzalayıb.*

***S**entyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistanın milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Sərdar Berdiməhəmmədova təbrik məktubu ünvanlayıb.*

***S**entyabrın 26-da dövlətimizin başçısı Rusiya Federasiyasının İjevsk şəhərindəki 88 saylı məktəbdə atəş nəticəsində uşaqların və yaşlıların həlak olması ilə əlaqədar Prezident zati-aliləri cənab Vladimir Putinə başsağlığı teleqramı göndərib.*

***Ö**lkəmizin rəhbəri sentyabrın 26-da "Media Reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında fərman imzalayıb.*

# TÜRKİYƏDƏ TƏHSİL ALACAQLAR

## *Nazir, general-polkovnik Vilayət Eyvazov onları qəbul edib*

"Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında polis təhsili sahəsində əməkdaşlıq haqqında" protokola əsasən, 2022-2023-cü tədris ilində Türkiyə Milli Polis Akademiyasının Polis Rəisləri Təlim Mərkəzində təhsil almaq üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə 20 yer ayrılıb.



Nazir, general-polkovnik Vilayət Eyvazovun göstərişinə əsasən DİN-in "Avtomatlaşdırılmış kadr informasiya sistemi" vasitəsilə şərtlərə uyğun olaraq bakalavr ali təhsil dərəcəsinə malik, türk dilini yaxşı bilən, fiziki hazırlıqlı, geniş dünyagörüşlü, müasir informasiya texnologiyaları ilə işləməyi bacaran 20 gənc əməkdaş seçilərək sənədləri qardaş Türkiyənin müvafiq təhsil müəssisəsinə göndərilib.

Bu münasibətlə seçilmiş əməkdaşları qəbul edən daxili işlər naziri Vilayət Eyvazov onları təbrik edərək iki qardaş ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olmasını məmnunluqla qeyd edib, təhsil alacaqları dövrdə Türkiyəli həmkarlarının təcrübələrindən yararlanmağı, öz üzərlərində daim işləməyi, biliklərini və fiziki hazırlıq səviyyələrini artırmalarını tövsiyə edib. O, əmin olduğunu bildirib ki, təhsil alacaqları müddətdə onlar Azərbaycan Polisini, xalqımızı şərəflə təmsil edəcəklər.

# ZƏFƏR SALNAMƏSİNİ YAZANLAR

## Tarixi ədaləti və torpaqlarımızın bütövlüyünü bərpa edənlərin doğmaları bizə əmanətdir











**Sabunçu Rayon Mühafizə İdarəsinin** rəhbərliyi və bir qrup şəxsi heyəti 27 sentyabr Anım Günü ilə əlaqədar rayon ərazisindəki Şəhidlər Xiyabanına baş çəkərək ərazi bütövlüyümüz uğrunda canlarını fəda edən Vətən övladlarının məzarları üzərinə gül-çiçək dəstələri qoyub, əziz xatirələrini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbirdə RMİ-nin əməkdaşları ilə yanaşı, şəhidlərin ailə üzvləri və rayon ictimaiyyəti də iştirak edib.

Ziyarət zamanı bildirilib ki, müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların hər cür qayğı ilə əhatə olunması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindəndir. Həmçinin, tədbirdə şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın igidlik və şücaətindən danışılıb, onların fədakarlıqlarının qəlblərdə əbədi yaşayacağı qeyd olunub.

Tədbirin davamı olaraq şəxsi heyət RMİ-nin əməkdaşları, şəhid qardaşları, kiçik serjantlar Cəlal Məhərrəmovla, Rauf Piriyevlə və Ziqam Abbasovla, eləcə də onların ailə üzvləri ilə görüşüblər. Görüşdə müqəddəs amal uğrunda şəhid olanların hər birinin ən ali zirvəyə ucaldığı diqqətə çatdırılıb. Şəhid əməkdaşların ailələrinə RMİ-nin rəisinin müvafiq əmri ilə maddi yardım da göstərilib.

**27 sentyabr Anım Günü ilə bağlı daha bir tədbir Polis Akademiyasında baş tutub.** Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Akademiyanın rəisi, polis general-mayoru Canpolad Daanov çıxışı zamanı igidlərimizin şücaəti, əzmi hesabına 30 il işğal altında olmuş torpaqlarımızın cəmi 44 gündə azad olunduğunu, tarixi ədaləti bərpa etdiyimizi bildirib. Qeyd olunub ki, döyüşlərdə Azərbaycan əsgəri əsl qəhrəmanlıq, fədakarlıq və vətənpərvərlik nümunələri göstərib.



**Tovuz Rayon Polis Şöbəsinin** rəhbərliyi və əməkdaşları Anım Günü ilə əlaqədar Vətən müharibəsində şəhid olmuş DİN Daxili Qoşunların hərbi qulluqçusu Vüqar Ələkbərovun ailə üzvlərinə baş çəkib, qayğıları ilə maraqlanıblar.

Görüşdə V.Ələkbərovun keçdiyi şərəfli döyüş yolu xatırlanıb, hünərindən, qorxmazlığından bəhs edilib.

Sonra şəhidin məzarı ziyarət olunub.

**Anoloji tədbir İmişli rayonunda da keçirilib.** RPŞ-nin rəhbərliyi və kollektivi Daxili Qoşunların şəhid hərbi qulluqçusu Abas Şahbazovun əvvəlcə ailəsini, sonra məzarını ziyarət ediblər. Əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunaraq ruhuna dualar oxunub.

Həmçinin, şöbə əməkdaşları 1990-cı illərdə mənfur düşmənlərimizə qarşı mərdliklə vuruşaraq Hadrut rayonunun Şaqax kəndində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan polis əməkdaşı, Milli Qəhrəman İmamverdi Əliyevin məzarına da baş çəkiblər. Onun əziz xatirəsini ehtiramla yad ediblər.

Tədbir şəhidlərə həsr olunmuş ağacəkmə aksiyası ilə davam etdirilib.

Daxili Qoşunların şəhid hərbi qulluqçusu İsmayıl Məmmədovun ailə üzvlərini ziyarət edən **Sabirabad Rayon Polis Şöbəsinin** rəhbərliyi və şəxsi heyəti şəhidlərin əziz xatirəsinin xalqımız tərəfindən daim əziz tutulduğunu, onların ailələrinin dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu vurğulayıblar.



**Ağcabədi Rayon Polis Şöbəsinin** əməkdaşları Anım Günü ilə əlaqədar Daxili Qoşunların hərbi qulluqçusu Elsevər Piriyevin ailəsinə baş çəkiblər. Sonra şəhidin məzarı ziyarət edilib, önünə gül-çiçək dəstələri qoyulub.

Tədbirdə şəhidimizin keçdiyi döyüş yolundan, göstərdiyi şücaət və qəhrəmanlıqlardan danışılıb, gələcək nəsillər üçün örnək olduğu diqqətə çatdırılıb.

**Daha bir neçə görüş Cəlilabad rayonunda baş tutub.** RPŞ-nin əməkdaşları Vətən müharibəsində şəhid olmuş dörd hərbi qulluqçunun - Fərid Hüseynovun, Mirsəfa Mirəşrəfbəylinin, Elnur Bağırovun və Ayaz Abasovun ailələrini ziyarət edib, ərzaq yardımını onlara təqdim ediblər. Görüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın igidlik və şücaətindən danışılıb, onların fədakarlıqlarının qəlblərdə əbədi yaşayacağı vurğulanıb.

**Anım Günündə Sabunçu Rayon Polis İdarəsinin** rəhbərliyi, eləcə də əməkdaşları rayon ərazisindəki Şəhidlər xiyabanını ziyarət edib, şəhidlərin məzarları önünə əklil qoyub, ruhlarına dualar oxuyublar. Onların keçdiyi şərəfli döyüş yolu xatırlanıb, hünərindən, qorxmazlığından bəhs edilib.

**Bakı Şəhər Baş Polis İdarəsinin Veteranlar Şurasının** sədri və üzvləri də Şəhidlər xiyabanını ziyarət ediblər. Sonra Vətən müharibəsi Qəhrəmanı Azad Hümbətovun ailəsinə baş çəkiblər. Şuranın sədri Emin Məmmədov Baş İdarə, eləcə də veteranlar adından şəhidin valideynlərinə hörmət və ehtiram əlaməti olaraq səbr, əzm diləyib.

Şəhid ailələri onlara göstərilən qayğıya görə Azərbaycan Polisinə təşəkkürlərini bildiriblər.

**Qeyd edək ki, 27 sentyabr Anım Günü ilə bağlı anoloji tədbirlər Masallı, Astara, Tərtər, Yevlax, Zaqatala və digər şəhər-rayon polis şöbələri tərəfindən də keçirilib.**

*"Polis"*

# Sözümüz gənclərədir





Göyçay rayonunun Elton Əkbərov adına 2 nömrəli tam orta məktəbində yuxarı sinif şagirdləri ilə polis əməkdaşlarının görüşü keçirilib. Tədbir yeniyetmələri hüquqazidd hərəkətlərdən qorumaq və gələcəkdə cəmiyyətdə layiqli yerlərini tutmaları üçün faydalı ixtisas, peşə seçiminə yönəldilməsinə həsr edilib.

Azərbaycan Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın tələblərinin yerinə yetirilməsindən irəli gələn DİN-in müvafiq göstərişinə əsasən baş tutan görüşdə ictimaiyyət nümayəndələri, gənc polis əməkdaşları və veteranlar iştirak edib.

Tədbirdə çıxış edən Göyçay Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Müqalib Abdıyev Azərbaycan Polisinin xalqımızın ən çətin dönəmlərində, dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasında və cinayətkarlığa qarşı qətiyyətli mübarizədə hər zaman fədakarlıqlar göstərdiyini, dövlətin əsas sütunlarından biri olduğunu təsdiq etdiyini bildirib. Azərbaycanın bugünkü qalib gəncliyinin sırasında gənc asayiş keşikçilərinin də yerinin olduğunu vurğulayan şöbə rəisi intellektual, savadlı kadr hazırlığında Polis Akademiyasının roluna diqqət çəkib, daxili işlər orqanlarında xidmətin üstünlüklərindən danışıb.

Ölkəmizin inkişafında gənclərin aparıcı qüvvə sayıldığını qeyd edən Göyçay rayon İcra Hakimiyyətinin Hüquq şöbəsinin müdiri Samir Xəlilov da inkişafa zəmin yaradan sabitliyin möhkəmlənməsində gənc polis əməkdaşlarının yaxından iştirak etməsini dövlətə layiqli xidmət kimi dəyərləndirib.

Göyçay Rayon Polis Şöbəsinin Veteranlar Şurasının sədri Heydər Quliyev isə polisin sıralarında vətənpərvər gənclərin dövlətin keşiyini çəkdiyini qeyd edərək, cəmiyyəti təhdid edən narkomaniya ilə mübarizədə polis əməkdaşlarının əzminə diqqət çəkib. O, gəncləri qarşıdakı illərdə daxili işlər orqanlarında xidmətə qəbul olaraq, bu şərəfli missiyaya qoşulmaq imkanlarından istifadə etmələrini tövsiyə edib.

Qeyd edək ki, DİN-in müvafiq göstərişinə əsaslanan silsilə tədbirlər DİN-in Şəxsi Heyətlə İş İdarəsinin təşkilatçılığı, yerlərdəki rəis köməkçilərinin iştirakı ilə keçirilir.

*"Polis"*

# ONLAR SABAHIN KEŞİKÇİLƏRİDİR

***Bu gün DİN-in Polis Akademiyasında cinayətkarlıqla mübarizənin nəzəri-praktiki əsaslarını öyrənən kursantlar, heç şübhəsiz, qanunun sabahkı gücünü təmsil edirlər.***



Qəbul imtahanlarında yüksək nəticə göstərən abituriyentlərin bu ali təhsil ocağına üstünlük verib polis peşəsini seçmələri isə gələcəyimizin əmin əllərə təslim ediləcəyi barədə cəmiyyətə ünvanlanan ayrı bir ictimai mesajdır.

Bu il yüksək balla Akademiyaya qəbul olunan birinci kurs kursantları Elmir Quliyevin, Yusif Abuzərlinin, İbrahim Zeynalovun və Elmir İsmayılovun timsalında neçə-neçə gəncimiz artıq polis peşəsinin sirlərini öyrənməyə başlayıblar.

Fürsət tapıb onlarla həmsöhbət olarkən, üzərində dövlət atributları olan uniforma daşımağın məsuliyyətini ilk gündən hiss etdiklərini söyləyən kursantlarımız, zabit kimi formalaşmaları üçün uzun yol və ağır sınaqlardan keçəcəklərinin fərqindədirlər. Ancaq buraya gələcəkdə xalqa və dövlətə xidmət etmək kimi müqəddəs bir vəzifənin yerinə yetirmə amalının, sabahımızın da sabitliyinin qorunması kimi böyük arzunun ardınca gəldiklərinə görə bütün çətinliklərə sinə gərəcəklərinə inandıqları açıq-aşkar hiss olunur.

Akademiyaya 664 balla qəbul olunan Elmir Quliyev vaxt-vədə yetişəndə Vətənimizə, xalqımıza ləyaqətlə xidmət etmək məqsədilə bu təhsil ocağını seçdiyini deyir: "Bu gün burada uniforma daşımağımla qürur, iftixar hissi keçirirəm. Vətənə layiqli zabit olaraq yetişmək istəyirəm".

Təbii ki, hazırda onların cinayətkarlıqla mübarizəsi nəzəri və praktiki bilikləri ən yüksək səviyyədə mənimsəmək, yəni oxumaqdır. Çünki yalnız hərtərəfli təhsil alan, peşəni mənimsəyən, özünü ölkəsinin gələcəyinə hazırlayan kursant gələcəkdə qanun təmsilçisi adını doğrulda, vətəndaşa dayaq ola bilər.

Qəbul imtahanında 654 bal toplayan Yusif Abuzərlinin fikrincə, Polis Akademiyası bu baxımdan ən yaxşı təhsil müəssisələrindən biridir və ona lazım olan bilikləri peşəkar müəllim-pedaqoq heyət, güclü maddi-texniki baza sayəsində əldə edə biləcək: "Elə ilk gündən məndə belə bir təəssürat yaranıb ki, burada peşəkar zabit kimi formalaşmağım üçün lazımi şərait mövcuddur. Seçimimdə yanılmadığıma görə çox şadam".

İbrahim Zeynalov isə qəbul imtahanında 658 bal toplayıb. Bu nəticə onun orta məktəbdə oxuyarkən polis zabiti olmaq planlarının həyata keçməsinə yol açıb. "Məni buraya arzularım gətirib, məqsədim də peşəkar zabit olmaq və xidmət etməkdir",-deyir.

Onun sözlərini kurs yoldaşı, 655 bal toplamış Elmir İsmayılov təsdiq edərək, bir gün cinayətkarlıqla mübarizə aparan zabit kimi onlara lazım olacaq bilik və bacarıqların tam öyrədiləcəyinə əmin olduğunu söyləyir. "Bəs, Polis Akademiyasının kursantı adını qazanmaq sənin üçün nə deməkdir" sualına "İlk növbədə, təbii ki, bundan qürur duyuram. Digər tərəfdən, polis zabiti olmağın məsuliyyətini sanki indidən üzərimdə hiss edirəm",- cavabını verir.

O, haqlıdır. Polis uniforması geyinildiyi andan iki duyğunu adamın üzərindən heç əskik etmir: qürur və məsuliyyət!

# MƏQSƏDİMİZ ONLARI QORUMAQDIR

## Nizami RPİ maarifləndirici aksiyanı davam etdirir







Nizami RPİ Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin əməkdaşları narkomaniya ilə mübarizə məqsədilə növbəti dəfə məhəllələrdə sakinlərlə görüşüblər. Rayon İcra Hakimiyyəti, Gənclər və İdman İdarəsi və könüllülərlə birlikdə keçirilən maarifləndirici aksiya çərçivəsində parklarda, insanların sıx toplaşdığı ərazilərdə, həyətlərdə sakinlərlə, xüsusən, yeniyetmələrlə maarifləndirici söhbət aparılıb.

Narkotik maddələrin insan orqanizminə və cəmiyyətə vurduğu yaralardan danışan əməkdaşlar gənclərin diqqətinin sağlam həyat tərzinə, təhsilə yönəlməsinin vacibliyini vurğulayıb, dəyərli tövsiyələr veriblər. Yeniyetmələrə narkomaniyadan və onun ağır fəsadlarından bəhs edən bukletlər paylanılıb.

Maarifləndirici tədbirin gənclərin qorunmasında əhəmiyyətli rol oynadığını deyən sakinlər polisin dövlət və qeyri-hökumət təşkilatları ilə birgə məhəllə görüşləri keçirməsini yüksək qiymətləndiriblər.

*R.Mehtiyev*

# Azyaşlı xilas edilib

**Narkomaniyanın qurbanına çevrilən gənc ana 3 yaşlı övladını dilənməyə məcbur edib. Suraxanı rayonunda baş verən hadisə barədə məlumat alan polis dərhal uşağın və ananın tapılması istiqamətində axtarışlara başlayıb.**





Suraxanı RPİ 31-ci PB-nin əməkdaşları tərəfindən yeri elə həmin gün müəyyən edilən ana uşağı ilə birgə bölməyə aparılıb və araşdırmalarla fakt öz təsdiqini tapıb. Bundan sonra onların yaşadıqları ünvana polis əməkdaşları ilə birlikdə baxış keçirən rayon icra hakimiyyətinin müvafiq komissiyası baxımsız və sosial təhlükəli vəziyyətdə qalan azyaşlının sığınacağa yerləşdirilməsi barədə qərar verib.

Polis Bölməsinin baş inspektoru, polis mayoru Rəsul Hüseynovun iştirakı ilə sığınacağa yerləşdirilən uşağı dilənməyə məcbur edən ana ilə bağlı araşdırmalar davam etdirilir. Onun məhkəmə qərarı ilə məcburi müalicəyə cəlb ediləcəyi bildirilir.

Azyaşlını sığınacağa qəbul edən Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzinin rəhbəri Kəmalə Ağazadə məsələ ilə bağlı feysbuk hesabında paylaşım edərək yazıb ki, bircə foto Bakı Şəhər Baş Polis İdarəsi və Suraxanı Rayon Polis İdarəsinin yetkinlik yaşına çatmayanlarla iş aparan əməkdaşlarının araşdırma aparıb uşağı xilas etməyə bəs edib: "Və nəticə! Hər birinizə təşəkkür edirəm! Tək bir uşaq xilas olmadı, eləcə də evdə psixi problemli nənə də artıq xilas olacaq".

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

*Bu günlərdə ABŞ-ın Pueblo şəhərində boks üzrə keçirilən beynəlxalq turnirdə DİN İdman Cəmiyyətinin yetirməsi Ümid Rüstəmov 57 kiloqram çəki dərəcəsində qalib olub. O, çinli idmançıları Xinvan Vanqı və Pinq Lyuya asanlıqla məğlub edib.*

*Finalda yetirməmiz Juliis Ballo ilə qarşılaşıb. Döyüşün sonuna yaxın qələbə qazanan Ü.Rüstəmov fəxri kürsüdə birinci olub.*

*Qeyd edək ki, Ü.Rüstəmovu yarışa Əməkdar məşqçi Yadigar Məmmədov hazırlayıb.*



# Lissabondan qələbə xəbəri gəldi



**Sentyabrın 25-də Portuqaliyanın paytaxtı Lissabonda Lapua Avropa Kubokunun atıcılıq üzrə turniri keçirilib.**

Qeyd edək ki, Lapua Avropa Kuboku Avropa Atıcılıq Konfederasiyasına məxsusdur və həmin turnirdə birincilik uğrunda dünyanın ən güclü atletləri mübarizəyə qatılır. Bu yarışda ölkəmizi Ruslan Lunyov təmsil edib.

DİN İdman Cəmiyyətinin yetirməsi, 2018-ci ildə Hərbçilər arasında dünya, 2019-cu ildə Avropa çempionu, İslam Həmrəylik Oyunlarının və Qran-Pri qalibi DİN Daxili Qoşunların kapitanı Ruslan Lunyov 25 metr məsafəyə standart tapançadan atəş üzrə qızıl, odlu silahdan atəş üzrə gümüş medal qazanıb.

Bundan başqa, Kubok uğrunda yarış il ərzində keçirilən 4 təsnifat mərhələsindən ibarətdir. Yeri gəlmişkən, R.Lunyov iyul ayında Tallində keçirilən üçüncü təsnifat mərhələsində iki gümüş və bir qızıl medal qazanmışdı.

Qeyd edək ki, çempionumuzun baş məşqçisi, anası Olimpiya mükafatçısı İrada Aşumova, şəxsi məşqçisi isə atası Əməkdar məşqçi Vladimir Lunyovdur.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Tovuz Rayon Polis Şöbəsinə** şəhər sakini S.Quliyevanın bank hesabından 330 manatının oğurlanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən rayon sakini B.Mehdiyev müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Lənkəran ŞRPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılan şəhər sakini O.Quluzadədən heroin aşkar olunub. Polis əməkdaşları tərəfindən narkotik vasitəni ona verməkdə şübhəli bilinən həmyerliləri C.Qasımov və F.Kazımov da müəyyən olunaraq saxlanılıblar. Şəxsi axtarış zamanı onlardan da heroin aşkar olunaraq götürülüb. Davam etdirilən tədbirlərlə F.Kazımovun həyətinə baxış zamanı isə oradan 4 kiloqram 370 qram heroin götürülüb.

◆◆◆

**Nəsimi RPİ-nin 20-ci Polis Bölməsinə** sentyabrın 23-də gecə saatlarında 2 nəfərin Şamaxı rayon sakini M.İsgəndərovun başına xəsarət yetirərək soyğunçuluq yolu ilə cibindən 200 manatını talamaları barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən Ağstafa rayon sakini H.Abdullayev və Saatlı rayon sakini V.Mürşüdov müəyyən olunaraq saxlanılıblar.

◆◆◆

**İsmayıllı Rayon Polis Şöbəsinə** sentyabrın 22-də rayon sakini M.Məmmədovun həyətindən 11 baş qoyunun oğurlanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən rayon sakinləri A.Mirzəyev və S.Səlimov saxlanılıblar.

# BİZƏ YAZIRLAR...

Sabunçu rayon Nardaran qəsəbə sakini Rasim Cəbrayılov redaksiyamıza ünvanladığı təşəkkür məktubunda ictimai asayişin və təhlükəsizliyin təmin olunmasında, hüquqazidd əməllərin qarşısının alınmasında, narkotiklərin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı qətiyyətli mübarizədə xidməti vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə görə Azərbaycan Polisinə minnətdarlığını bildirir.

"Yollar tıxac olduğu üçün səhhətində problem yaranan qızımı xəstəxanaya çatdırmağa çətinlik çəkirdim. Ərazidə xidmət aparan polislər köməyimə çatdı. Sağ olsunlar, onların sayəsində qızımın həyatını xilas edə bildim". Bu sözləri Abşeron rayon sakini İmran Turabov DİN-ə ünvanlanan təşəkkür məktubunda yazır.

Sosial şəbəkə istifadəçisi Zəmilə Ağayeva isə üzləşdiyi dələduzluq hadisəsi ilə əlaqədar etdiyi müraciətə operativ reaksiya verilərək qısa zaman kəsiyində həll olunmasında, eləcə də ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərdikləri köməkliyə görə DİN rəhbərliyinə təşəkkürünü bildirir.



Avtomobilini texniki baxışdan keçirərkən göstərilən xoş rəftara, həssas münasibətə, diqqət və qayğıya, eləcə də çevik xidmətə görə Bakı şəhər sakini Ərşad Nəbiyev daxili işlər orqanlarına minnətdarlığını ifadə edir.

Vətəndaş Rasif Hətəmxanov Qaradağ rayonu Lökbatan dairəsində yaşanan nəqliyyat sıxlığı ilə bağlı polis əməkdaşlarına etdiyi müraciətdən sonra Qaradağ RPİ-nin Dövlət Yol Polisi Şöbəsinin əməkdaşları tərəfindən lazımi tədbirlərin həyata keçirildiyi üçün təşəkkürünü yazır.

Şəki rayon sakini Rövşən Lətifov DİN-in "Facebook" səhifəsinə təşəkkür mesajı yazıb. O, səhifə vasitəsilə ünvanladığı müraciətinə çevik reaksiya verildiyi, Yasamal RPİ-nin Dövlət Yol Polisi Şöbəsinə dəvət olunaraq dinlənildiyi və müvafiq araşdırmalara başlanıldığını qeyd edir.

"İçərisində pul və mühüm sənədlər olan cüzdan tapmışdım. Cüzdanın sahibinə qaytarılmasında mənə göstərdikləri köməkliyə görə polis əməkdaşlarına minnətdaram". Bu sözləri Göyçay rayon sakini Ceyhun Eldarlı DİN-in "Instagram" səhifəsinə yazaraq əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

*T.Əlizadə,*
*polis mayoru*

## Daxili işlər orqanları əməkdaşlarının nəzərinə!



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 1, 2, 3 və 4 saylı uşaq bağçalarına daxili işlər orqanlarında xidmət edən əməkdaşların uşaqlarının qəbulu həyata keçirilir.

Ətraflı məlumat üçün DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinə müraciət edə bilərsiniz.

**Əlaqə nömrələri: (012) 562-38-40 və 408-81-25**

**Bağçalar: 1 saylı-(012) 594-14-49, 2 saylı-493-05-68, 3 saylı-440-82-35, 4 saylı-563-55-80**

# Bilmədiklərimiz

1. Göz yaşlarının tərkibində olan lizosim maddəsi təbii antibiotikdir. Bu maddə gözləri infeksiyalardan qoruyur.
2. Göz yaşlarının kimyəvi tərkibi dəyişilir. İnsan kədərdən ağlayanda göz yaşları daha duzlu, hətta acı olur, sevincdən ağlayanda isə əksinə.
3. Elmi araşdırmalara görə, ağlamaq həqiqətən stresi azaldır. Müşahidələr göstərib ki, ağladıqdan dərhal sonra insanlar özünü daha pis hiss edir. Lakin yarım saat keçdikdən sonra insan yüngüllük hiss etməyə başlayır.
4. Ağlama zamanı göz yaşları ilə birlikdə stres hormonları ifraz olunur.



5. Göz yaşlarının 98 faizi sudur, qalanı isə duz, zülal, hormonlar və bəzi digər maddələrdir.
6. Göz yaşlarının tərkibinə görə insanın bəzi göz xəstəliklərini və göz travmalarını aşkar etmək mümkündür.
7. Amerika alimləri aşkar ediblər ki, daha çox ağlayan insanlar daha kreativ və yaradıcı olur.
8. Eksperimentlər göstərib ki, ağlamaq həm fiziki, həm də emosional ağrıları azaldır.
9. Niyə qadınlar daha çox ağlayır? Məsələ burasındadır ki, kişi hormonu olan testosteron göz yaşlarının ifrazını azaldır, qadın hormonu oksitosin isə əksinə artırır. Yaşlandıqca kişi orqanizmində testosteronun ifrazı azalır və bu səbəbdən yaşlı kişilər daha «ağlağan» olur.

❖❖❖

Karate sözü – "boş əl" deməkdir.
Bal heç vaxt xarab olmur.
Dəvələrin onurğası düzdür.
İnsan irəliyə bir addım atmaqdan ötrü bədənindəki 54 fərqli əzələ hərəkət etməlidir.
Bütöv Ay, yarım Aydan doqquz dəfə parlaqdır.
Qan sudan 6 dəfə tünddür.
Qədim misirlilərin yastıqları daşdan imiş.
Fillər tullana bilmirlər.
Arxeoloqlar tərəfindən İsveçrədə aşkar edilən ən qədim ayaq izinin 5200 yaşı var.

*R.Əliyeva*

# STATİSTİKA

## Kriminal icmal

- Sentyabrın 22-dən 28-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 362, əvvəlki dövrlərdən bağlı qalan 62 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 390, o cümlədən borclu şəxs qismində axtarışda olan 277 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 10 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 11 nəfər ölüb, 7 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 206, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 12 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik